**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

**Azərbaycan Türkiyə Amerika Fondu aktiv fəaliyyətə başlayır**

**No: 09/03/82**
**06.02.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri, Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondunun (ATAF) Himayəçilər Şurası sədrinin müavini və Azərbaycan Türkiyə Amerika Fondunun (ATAF US) sədri Ahmet Erentokun Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri başlamışdır. İşgüzar səfər çərçivəsində ABŞ-ın bir sıra iri şəhərlərində Azərbaycan və Türkiyə diasporalarının nümayəndələri, yerli hakimiyyət orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri ilə bir sıra görüşlər keçiriləcəkdir.

A. Erentok tərəfindən ilk "şəhər turu" 6-7 fevral 2009-cu il tarixində Hyustona (Texas ştatı) ediləcəkdir. 6 fevralda Türkiyə Cümhuriyyəti konsulu Ali Fındık, Türkiyə Amerika Assosiasiyaları Assembleyasının (ATAA) Hyuston ofisinin rəhbəri Esen Erdemir və İstanbul-Hyuston Qardaş Şəhərlər Təşkilatının rəhbərliyi ilə görüşlər keçirilcəkdir. ATAF(US) sədri eyni gündə Yəhudi cəmiyyətinin nümayəndələri ilə də görüşəcəkdir.

7 fevral 2009-cu ildə A. Erentok Hyuston şəhəri ictimaiyyətinin, o cümlədən Azərbaycan və Türkiyə diasporaları nümayəndələri üçün məruzə ilə çıxış edəcəkdir. Təqdimat zamanı ATAF və ATAF US-in qurulma məqsədləri və fəaliyyətləri haqqında məlumat veriləcək, qurumların ortaq hədəfləri müzakirə ediləcəkdir. Tədbir Azərbaycan-Hyuston Qardaş Şəhərlər Təşkilatı, İstanbul-Hyuston Qardaş Şəhərlər Təşkilatı və Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) Hyustondakı ofisinin təşkilatçılığı ilə həyata keçiriləcəkdir.

Azərbaycan Türkiyə Amerika Fondu (ATAF US) 2008-ci ilin oktyabr ayında yaradılmışdır. Mənzil qərargahı Vaşinqton şəhərində yerləşən Fondun yaradılmasında əsas məqsədlərdən biri ABŞ-da mövcud olan Azərbaycan və Türkiyə cəmiyyətlərini bir araya gətirərək onların fəaliyyətində vahid koordinasiyaya nail olmaqdır. Digər bir məqsəd isə Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondu (ATAF) ilə əməkdaşlıq çərçivəsində ATAF tərəfindən nəşr edilən çap materiallarının, həmçinin hazırlanan rəqəmli (digital) materialların ABŞ ictimaiyyəti arasında yayılmasına yardım etməkdir. Eyni zamanda, ATAF US-in digər bir məqsədi iki ölkənin ortaq problemi olan erməni problemi məsələsi üzrə ABŞ-da yaşayan Azərbaycan və Türkiyə cəmiyyətlərinin məsələ ilə bağlı bilgi əksikliyini aradan qaldırmaq olacaqdır. Eyni zamanda, ABŞ ictimaiyyətinin digər nümayəndələri arasında da eyni məqsədlə iş aparılacaqdır. Bunun üçün müvafiq treyninqlər və seminarlar təşkil ediləcəkdir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**